# Qiyamətə qalmayan Zəfər

## "İndi də onların ordusu bax, bu pulemyot kimi yararsızdır"



**Uzaq tarix deyil, 8 ay bundan öncə, 10 milyon xalqın ürəyi Qarabağda döyünürdü. Analarımızın duaları, qələbə arzularımız, zəfər hissləri, prezidentin hər gün gözlədiyimiz qürurverici çıxışları, sevinc göz yaşları, fərəh hissi, dəfələrlə çevirib yenidən baxdığımız "Bayraktar"ın, HAROP-un məhv etdiyi düşmən texnikası... Əsgərlərimizin qürurlu duruşu, qorxmaz, məğrur hərəkətləri, müharibədə iştirak etmək arzusu...**

Vətən uğrunda canını gözünü belə qırpmadan fəda edən Azərbaycan əsgəri və məğrur Azərbaycan əsgərinin fonunda qaçmamağı üçün maşına zəncirlənən erməni hərbçisi... Və sonda 30 ildir gözlədiyimiz qələbə... Hamımız bu hissləri yaşadıq. Nəhayət, torpaqlarımızı mənfur düşmənin tapdağından azad etdik. Biz qələbə paradını bütün dünyaya nümayiş etdirdik. Ən əsası, başımıza gələn bütün faciələrdə kar, kor rolunu oynayan, haqlı davamızda isə yanımızda deyil, qarşımızda olan "dost"larımıza göstərdik.

Bu gün qələbəmizi qəlbimizdə bir daha canlandıran, Azərbaycan əsgərinin "dəmir yumruq" əməliyyatı ilə məhv edilən, erməni ordusunun gücünün mif olunduğunu sübut edən hərbi texnika Hərbi Qənimətlər Parkında nümayiş olunur. Qələbənin məkanı olan bu parka yollanırıq.

Adətən reportajlarda ünvanı xüsusilə qeyd edirik. Bu gün bunu etməyə ehtiyac belə yoxdur. Çünki əminik ki, bütün xalqımız o məkanı artıq bilir. Günün hansı saatında gediriksə, orada gördüyümüz növbə bunu sübut edir. Üstəlik, bu növbə adətən rastlaşdığımız narazı insanlardan ibarət deyil. Hamı həvəslə dayanıb, həyəcanla sırasını gözləyir. Uşaq, yeniyetmə, gənc, qoca... Hamı buradadır...

Parkın girişində yerləşdirilən arakəsmələr insanların sosial məsafəni qoruyaraq, müvafiq növbə ilə içəri girməsinə rahat şərait yaradır. Temperaturumuz ölçüldükdən sonra bilet almaq üçün kassaya yaxınlaşırıq. Bilet qiymətləri bir nəfər üçün 2 manatdır. Şəhid ailələri, qazilər və 6 yaşınadək uşaqların girişi ödənişsizdir. Əcnəbilər isə buranı görmək üçün 10 manat ödəməlidir. Parkda olan hərbi qənimətlər barədə ətraflı məlumat istəyən şəxslərə bələdçi təyin edilir ki, bələdçi ilə gəzinti də 20 manatdır.












Park 5 hektarlıq ərazidə salınıb. Burada düşmənin 300-dən çox hərbi qəniməti, silah-sursatları eksponat kimi sərgilənir. Hər bir eksponatın qarşısında QR kodla təchiz olunmuş məlumat lövhələri asılıb.

Girişdə informasiya guşəsi və onunla üzbəüz suvenirlər satılan mağaza fəaliyyət göstərir. Burada Qarabağa, Vətən Müharibəsinə həsr olunmuş, üzərində "Noldu, Paşinyan", "Zəfər bizimdir", "Qarabağ Azərbaycandır" yazılmış maykalardan, kepkalardan tutmuş, kələğayılara qədər müxtəlif geyim əşyaları və digər suvenirlər var. Qiymətlər 15 manatdan başlayır.

Parkın ərazisində insanı ən çox təsirləndirən Prezidentin qələbə çıxışları, marş səsləridir. Girişlə üzbəüz meydanda Azərbaycan bayrağı dalğalanır, arxada isə Ermənistan maşınlarının nömrə nişanlarının yer aldığı, üzərinə "Qarabağ Azərbaycandır" şüarı yazılmış lövhə var. Zəfər paradında adından ən çox bəhs edilən, düşmənə "od"vuran lövhə... Hazırda Parkda öz yerini tutub. Elə hamının da ən çox şəkil çəkdirdiyi məkanlardan biridir.

Onunla yanaşı isə 44 günlük Vətən Müharibəsi zamanı baş verənlərin xronoloji ardıcıllıqla qeyd olunduğu başqa bir iri lövhə - infoqrafika yerləşir. Bu infoqrafikada 27 sentyabrdan 10 noyabra qədər təkcə ordumuzun əldə etdiyi uğurlar deyil, eləcə də ermənilərin Gəncədə, Bərdədə, Tərtərdə dinc sakinlərə qarşı törətdikləri hərbi cinayətlər haqda məlumatlar da yer alıb.

Parkda düşmənin sıradan çıxarılmış 150-dək ağır texnikası - tanklar, toplar, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa", KUB zenit-raket kompleksləri və digər eksponatlar sərgilənir. Bu texnikalar Ermənistanın "məğlubedilməz ordu" mifi ilə bir yerdə dağıdılıb.

Üz tuturuq "səngər"ə. Dırnaq içində yazsam da, əsl səngərdən fərqlənmir. Düşmən bunkerində gəzərkən ordumuz tərəfindən zərərsizləşdirilən erməni ilə rastlaşırsan. Komandir otağında iki erməni hərbçisi söhbət edir. Kazarmada üzündəki qorxu ifadəsi ilə yatan, yemək hazırlayan erməni ilə də rastlaşmaq olar. Maketlər o qədər realdır ki, düşmən hərbçilərinin həyat tərzi ilə lap yaxından tanış olmaq mümkündür. Hətta yedikləri düyülər, mərcilər, konservlərə qədər nümayiş olunur. Diqqətlə baxsaq, maketlərin gözündə Azərbaycan əsgərindən qorxunu belə, görmək olar.

Ən çox müzakirə olunan eksponat boş erməni dəbilqələridir. Erməni əsgərlərinin torpağımızın işğalı, vandalizm və digər cinayətlər zamanı geyindikləri dəbilqələr parkda nümayiş olunur. Bu da bütün düşmənlərə və xalqımıza qarşı pis niyyəti olan insanlara gözəl bir xəbərdarlıq simvoludur. Sülhsevər millətik. Səbrimiz də çoxdur. Lakin tükənəndə dəmir yumruğumuzla tanış olacaqsınız.

Park boyu silah qutularını xatırladan oturacaqlar var. Parkın işıqları isə boş mərmi karkaslarından hazırlanıb.

Burada quraşdırılmış videozalda ziyarətçilər şanlı qələbəmizə aparan yol, ali baş komandanın düşməni sarsıdan sözləri və döyüş səhnələri ilə tanış ola bilərlər.

Açıq məkanda "Smerç" və "Toçka U" raketlərinin hissələri sərgilənir. Dinc əhaliyə qarşı istifadəsi bütün dünyada qadağa olunan bu raketlər erməni vəhşiliyini növbəti bariz nümunəsidir. Raketlərə tamaşa etmək, hətta yaxınlaşıb üzərindəki yazıları, detalları diqqətlə nəzərdən keçirmək mümkündür. Vətən müharibəsi zamanı düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları da ziyarətçilərin marağına səbəb olur.

Azərbaycan ordusu tərəfindən partladılan tankları maraqla müşahidə edən gənc xanıma yaxınlaşırıq. Özəl şirkətlərin birində çalışan Leyla xanım nahar fasiləsində iş yoldaşları ilə parka yollanıb. Deyir ki, burada sərgilənən hərbi qənimətlər onu təsirləndirib: "Müharibə zamanı isti ofislərimiz və evlərimizdə oturarkən əsgərlərimizin göstərdiyi qəhrəmanlıq və fədakarlığı tam olaraq başa düşmək olmurdu. Yalnız bura gələndən sonra mən qələbəmizin hansı zəhmətin nəticəsində mümkün olmasını sözün əsl mənasında hiss etdim. Parkda gəzib nə vaxtsa ciddi təhlükə hesab olunan bu tanklar və texnikanın tam zərərləşdirilmiş və "dəmir yumruq"la əzilmiş halını görəndə xalqımızın əsl gücünü başa düşürsən".

Tankın üstündə "Noldu, Paşinyan?" qışqıran uşaq diqqətimizi çəkir. Tanka dırmaşıb şəkil çəkdirən uşaqların atasına yaxınlaşırıq. Mehman müəllim 6 yaşlı Orxanı və 9 yaşlı Kəmaləni parka gətirib: "Müharibənin ilk günündən uşaqlarımda böyük vətənpərvərlik hissini müşahidə edirəm. Qələbəmizə bu körpələr ürəkdən sevinib̧lər, evimizdə bayram abhavası indiyədək hiss olunur. Mən qürur duyuram ki, düşmənin nə vaxtsa fəxr elədiyi bu hərbi texnika və silahları Azərbaycan əsgəri tərəfindən zərərsizləşdirilib, uşaqlarımızın sözün əsl mənasında oyuncaqlarına çevrilib. İndi uşaqlarım tanka dırmaşıb cənab Prezidentimizin "Nooldu, Paşinyan" sualını təkrarlayır. Bu günü gördüyümə görə şükür edirəm".

Parkın yeniyetmə ziyarətçiləri Əli və İsmayıl isə hərbiçi olmağa qərar veriblər: "Biz 9-cu sinifdə oxuyuruq. Artıq gələcəyimizi düşünəndə digər peşələrə yox, hərbiçi olmağa üstünlük veririk. Çünki Azərbaycan ordusu öz adını dünyanın ən müasir və güclü orduları sırasına yazdırıb. Bu səngərlərdə illərlə siçovul kimi gizlənən düşməni bir-bir tapıb torpaqlarımızdan "iti qovan" kimi qovmuşuq. İndi də onların ordusu bax, bu pulemyot kimi yararsızdır".

Biz müharibə dövrünün uşaqları idik. Torpaqları əlindən alınan, 20 yanvar, Xocalı faciələrini görən, haqqı, düşmən və onun əməllərinə illərlə kor qalan, dünya ictimaiyyəti tərəfindən tapdalanan uşaqlar... Bizim qələbə söhbətlərimiz ancaq faşist Almaniyasına qarşı qazanılan uğurla yekunlaşırdı. Babalarımızdan eşitdiyimiz bu idi. Amma bu gün Zəfər dövrünün uşaqları böyüyür. Qisasımız qiyamətə qalmadı. Qisasımız, ədalətin bərpası bizdən sonrakı nəslə qalmadı. Qələbəmiz mübarək...

**Aygün ƏZİZ**